# UNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılmasından 25 il ötür

**UNESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının yaradılmasının 25 illiyi qurumun baş qərargahında təntənə ilə qeyd edilib. Bu barədə Mədəniyyət Nazirliyinin mətbuat xidməti məlumat yayıb.**




Məlumatda deyilir ki, UNESKO Baş konfransının 40-cı sessiyası çərçivəsində keçirilən tədbirdə təşkilatın nümayəndələri, bir sıra ölkələrin mədəniyyət nazirləri, daimi nümayəndəliklərin rəhbərləri və əməkdaşları iştirak ediblər.

UNESKO yanında daimi nümayəndəliyimizin rəhbəri, səfir Anar Kərimov giriş sözü ilə çıxış edərək ölkəmizlə bu qurum arasında əlaqələrə toxunub. Ölkəmizin qurumun prinsip və dəyərlərinə həmişə sadiq olduğunu vurğulayıb və bunun UNESKO ilə səmərəli əməkdaşlıq münasibətlərimizlə təsdiqləndiyini bildirib. Ötən illər ərzində milli komissiyanın UNESKO ilə elm, təhsil, mədəniyyət, informasiya və kommunikasiya sahələrində əməkdaşlığın həyata keçirilməsində əlaqələndirici rol oynadığını, təşkilatın proqram və tədbirlərinin hazırlanmasında və reallaşdırılmasında Azərbaycanın fəal iştirakını diqqətə çatdırılıb, bununla fəxr etdiyimizi bildirib. Ölkəmizin UNESKO-nun proqramlarına dəstək verdiyini, bir çox layihələr həyata keçirdiyini vurğulayıb.

UNESKO baş direktorunun Afrika Departamenti üzrə müavini Firmin Eduard Matoko baş direktor adından milli komissiyanın 25 illiyini təbrik edib. Onun milli səviyyədə deyil, regional və beynəlxalq səviyyələrdə çoxsaylı layihələr həyata keçirməklə UNESKO-nun missiyasını dəstəklədiyini diqqətə çatdırıb. UNESKO-nun gündəliyində əsas tədbirlərdən olan və Bakıda keçirilən ümumdünya mədəniyyətlərarası dialoq forumlarına toxunaraq, ölkəmizin bu sahədə əvəzsiz rolundan danışıb. Daimi nümayəndəliyimizə və milli komissiyaya ölkəmizin zəngin mədəni irsini, müxtəlif mədəniyyət ənənələrini UNESKO Baş Qərargahında keçirdikləri tədbirlər vasitəsilə tanıtdıqlarını alqışlayıb.

Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri, UNESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının baş katibi Elnur Sultanov bu komissiyanın yaranması zərurətindən danışıb.

Tədbirdə qeyd olunub ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə ölkəmizlə UNESKO arasındakı əlaqələrin inkişafına böyük töhfələr verilib.

"Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)" yubiley medalı UNESKO baş direktorunun xüsusi müşaviri, Ümumdünya İrs Komitəsinin sabiq rəhbəri Munir Buşenakiyə təqdim olunub.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2019.- 24 noyabr. S. 7.